# ELMİN və ALİCƏNABLIĞIN ZİRVƏSİNDƏ

Həyatda elə istedadlı insanlar var ki, ulu Tanrıdan verilən ağıl və qabiliyyətləri ilə seçdikləri sahədə mütləq şəkildə uğur əldə etmək imkanındadırlar. Ələlxüsus belə şəxsiyyətlər ya elmdə, ya da incəsənətdə fərqlənir və daim həyat yollarında zirvəyə doğru irəliləməyi bacarırlar. Təbii ki, yaşadığımız cəmiyyətdə çoxlarının uğurlu fəaliyyətindən danışmaq mümkündür. Lakin əsas şərtlərdən sayılan çatdıqları yüksəklikdə uzun illər qalmaq xoşbəxtliyi hər kəsə nəsib olmur. Bu yazımızın qəhrəmanı da incəsənət sahəsində böyük nailiyyətlər qazanmış bəstəkar, fəlsəfə elmləri doktoru, professor, Əməkdar incəsənət xadimi, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının yaradıcılıq və tədqiqat üzrə prorektoru Gülnaz Abdullazadədir. İstərdim ki, oxucularımızı onunla daha yaxından tanış edim. Çünki cəmiyyətin, mənsub olduğu xalqın simasını təmsil edən insanlar o zaman aparıcı qüvvəyə çevrilirlər ki, alimliyini, ziyalılığını, şəxsiyyət zənginliklərini öz şəxsi nümunələrində əks etdirə bilsinlər.

G.Abdullazadə 7 sentyabr 1946-cı ildə Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Lap uşaqlıqdan musiqiyə böyük həvəsini görən valideynləri onu Bülbül adına orta ixtisas musiqi məktəbinə qoyurlar. Bir qədər sonra balaca musiqiçinin bəstəkarlıq qabiliyyəti üzə çıxır və artıq VII sinifdən Bakıda çalışan tanınmış nəzəriyyəçi Olqa Nikolskayanın sinfinə keçirilir. Hələ məktəbdə oxuyarkən balaca Gülnaz fortepiano üçün bir neçə kiçik formalı sonatina, variasiyalar, prelüdlər yazır. Bəstəkarlıq istedadı onu Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Ü.Hacıbəyli adına



Bakı Musiqi Akademiyası), görkəmli bəstəkar, Xalq artisti, professor Cövdət Hacıyevin sinfinə gətirib çıxarır. Demək lazımdır ki, hər zaman zahiri və daxili gözəlliyi ilə seçilən gənc Gülnaz inadkarlığı və çalışqanlığı ilə də tələbələr arasında fərqlənirdi. Konservatoriyanı C.Hacıyevin rəhbərliyi altında yazdığı simfoniya ilə bitirir və həmin əsər simfonik orkestrin ifasında həm Azərbaycan Dövlət Konservatoriyasında, həm radio dalğalarında dəfələrlə səsləndirilib. Digər "Vokaliz" adlı vokal silsiləsi ali musiqi ocaqlarında tədris proqramına daxil edilib. Konservatoriyanı bitirdikdən sonra o, əvvəlcə 1 saylı musiqi məktəbində, sonra isə A.Zeynallı adına orta musiqi məktəbində (indiki Musiqi Kolleci) müəllim kimi çalışır. Lakin hər zaman yenilik axtarışında olan, dünyanın məşhur filosoflarının kitablarını öyrənən, klassik ədəbiyyatı yaxşı bilən və çatdığı səviyyə ilə arxayınlaşmayan Gülnaz xanım elmlə məşğulluğa can atırdı.

Qeyd etmək lazımdır ki, 70–80-ci illərdə respublikamızda ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə formalaşmış gözəl ab-hava, yaradıcı və elm adamlarına göstərilən dövlət qayğısı onlara sərhədlərdən kənarda da bacarıqlarını nümayiş etdirmək və

**Gülnaz xanım məhz belə gənclərdən idi. O, Lomonosov adına MDU-nun fəlsəfə fakültəsinin "Estetika" kafedrasının aspiranturasına qəbul edilir və 3 il ərzində Moskvada əsl həyat və elm məktəbi keçir. Hələ Moskvada təhsil alarkən elmi rəhbəri olmuş, tanınmış alim, professor M.Ovsannikov onun elmi işi haqqında yüksək fikirdəydi və uğurlarına daim sevinirdi. Namizədlik dissertasiyasını başa çatdırıb müdafiə etdikdən sonra doğma vətəninə qayıdır. Bu illər ərzində tədqiqatlarının nəticələrini əks etdirən bir neçə dəyərli və maraqlı məqalələri populyar jurnallarda və toplularda işıq üzü görür.**

Eyni zamanda ümumittifaq konfranslarında da məruzələrlə çıxış edir. Gülnaz xanımın seçdiyi elm sahəsi Azərbaycan üçün yeni idi və yazdığı "Azərbaycan muğamlarının fəlsəfi mahiyyəti", "Hegelin musiqi estetikası" adlı monoqrafiyaları alimlər tərəfindən böyük maraqla qarşılanmışdı. Hətta görkəmli leninqradlı alim A.Yusfin



uğur qazanmaq şəraiti yaratmışdı. Həmin mütəxəssislərin avanqard sırasında Gülnaz Abdullazadə də vardı.

Bildiyiniz kimi, həmin illərdə Moskva Dövlət Universitetinin aspiranturasına daxil olmaq istəyənlər tanınmış alimlərin qarşısında imtahan verməli, yüksək bilik nümayiş etdirməli idilər. Yalnız özünə həddsiz əmin insanlar bu addımı ata bilərdilər.

Səmərqənddə konfransların birində Gülnaz xanımın kitabını əldə edib dəyərli fikirlərinə görə minnətdarlıq məktubu ünvanlayır.

Onun neçə illər ərzində ərsəyə gətirdiyi "Musiqi incəsənətinin fəlsəfi mahiyyəti", "Qədim və orta əsrlərin musiqi mahiyyəti", "Musiqi, insan və cəmiyyət" və başqa monoqrafiyaları Azərbaycan musiqi elmi üçün böyük əhəmiyyət kəsb edir. Əsərlərində

həm Azərbaycan, həm də qədim Şərq mədəniyyətinin, incəsənətinin, muğam fəlsəfəsinin və dini fəlsəfəyə görə musiqi fikrinin estetik təbiəti, ifadə vasitələri kimi problemlər araşdırılır. Bu və digər elmi problemlər Şərq və Qərb kontekstində fəlsəfi mahiyyətin dərki üçün vacib məsələlərdir və onun doktorluq dissertasiyasının əsasını təşkil edir. Elə bu zamanlar (yəni 80-ci illərin ortalarında) Gülnaz Abdullazadə Azərbaycan Dillər Universitetinin "Fəlsəfə" kafedrasının dosenti, sonradan isə həmin kafedranın müdiri vəzifəsində çalışmışdır.

XX əsrin 90-cı illərinin əvvəli yaddaşımıza faciəvi hadisələrlə həkk olunub. Eyni zamanda məlum 20 Yanvar hadisələri zəminində ölkədə milli şüurun oyanması, xalq birliyinin nümayişi, ölkəmizin azadlığı uğrunda insanlarımızın canlarından keçdiyi dövr kimi səciyyələnməlidir. Azərbaycanın hər bir dəyərli vətəndaşı kimi Gülnaz xanım da xalqını, vətənini ürəkdən sevən ziyalıdır və milli mədəniyyətin inkişafı üçün daim əlindən gələni edir. Vətənimiz üçün ağır olan 1990-cı ildə Gülnaz Abdullazadə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına elmi və yaradıcılıq üzrə prorektor vəzifəsinə təyin olundu və belə demək mümkünsə, digər – təşkilatçılıq qabiliyyəti də üzə çıxdı. Həmin vəzifəyə təyinat alarkən rəhbərliyi altında keçirilən ilk tədbir vətənə böyük sevgisindən xəbər verirdi. Bu, Azərbaycan Demokratik Respublikasının (1918) yaranışı – 28 May gününə həsr olunmuş respublika miqyaslı elmi-praktik konfrans idi. Təsəvvür edin ki, ölkədə fövqəladə vəziyyət hökm sürdüyü zaman cəsarətli xanım bəlkə də iş karyerasına son qoyacaq bir addım atır. Həmin konfrans çərçivəsində konsert də nəzərdə tutulmuşdu və ilk dəfə vaxtilə dahi Üzeyir Hacıbəylinin Əhməd Cavadın sözlərinə bəstələdiyi çağdaş Azərbaycanın (A.Əzimovun aranjimanında) Dövlət Himni ifa olunur. Konfrans yüksək səviyyədə keçdi və ölkənin ən aparıcı alimləri məruzə ilə çıxış etdilər. Sonrakı bədii hissədə Azərbaycanın Dövlət Himni səsləndiriləndə bütün iştirakçılar ayağa qalxıb göz yaşlarını saxlaya bilmədilər. Təbii ki, insanların emosiyaları coşan bir



anda təşkilatçı bəlkə də heç kimin yadına düşmədi. Lakin zaman keçdikcə biz bunu daha yaxşı dərk edərək cəsarətinə və mərdliyinə görə təşkilatçıya böyük minnətdarlığımızı bildirməliyik! Demək istərdim ki, Gülnaz xanımın həyatında belə hadisələr çox olub. Onun ürəyi Azərbaycana sevgi ilə doludur və deyərdim ki, BMA-da dahi Üzeyir bəy ənənələrini yaşadanlardandır.

> **Ümumiyyətlə, dahi bəstəkarın adını daşıyan elm-musiqi ocağının peşəkar pedaqoji kollektivi var. Akademiyada bəstəkar Arif Məlikov və pianoçu Fərhad Bədəlbəyli səviyyəli korifeyləri, Fidan və Xuraman Qasımovalar kimi gözəl sənətkarları və dünyada tanınmış digər bəstəkarları və ifaçıları görəndə insan böyük qürür hissi keçirir! Ali məktəbimizdə ölkəmizdən kənarda laureat, diplomant adını qazanan onlarca tələbə təhsil alır.**

Eyni zamanda musiqi sənətinin digər bir sahəsi musiqişünaslıqla bağlıdır ki, həm də Gülnaz xanımın gərgin zəhməti və töhfələri sayəsində inkişafdadır. Cəsarətlə deyə bilərik ki, artıq o, bir musiqişünaslar ordusu yarada bilib. Bu gün doktorantları arasında həm BMA-da yüksək vəzifələrdə, həm Azərbaycanın müxtəlif bölgələrində çalışan mütəxəssislər az deyildir. Belə ki, yetirmələri Naxçıvan, Gəncə, Quba, Şamaxı və digər rayonlarda musiqi mədəniyyətinin inkişafı naminə uğurlu fəaliyyət göstərirlər.

Təbii ki, onun elmi fəaliyyəti ölkə daxili ilə kifayətlənmir. Azərbaycan müstəqillik qazanandan sonra qardaş Türkiyəyə gedən ilk musiqişünas alimlərdən biri də Gülnaz xanım idi. Azərbaycan musiqi mədəniyyətinin əldə etdiyi naliyyətlərin yorulmaz təbliğatçısı kimi o, görkəmli bəstəkarlarımızın yaradıcılığı haqqında məruzələr edir. Konfranslarda, beynəlxalq simpoziumlarda əldə etdiyi təşəkkür bəlgələrinə baxanda heyran qalırsan! Əgər əvvəllər bir iştirakçı kimi dəvət edilirdisə, sonralar hər bir simpoziumda, konqresdə çıxışı böyük maraq doğurur. Hamımıza məlumdur ki, Şərqdə ilk opera müəllifi Ü.Hacıbəyli mədəniyyətimizin inkişafı üçün elə möhkəm təməl qurub ki, musiqimiz dünya miqyasında sayılıb-seçilənlərdən olub. Elə qardaş ölkədə də bunu yaxşı anladıqları üçün musiqi xadimlərimizə böyük tələbat yaranıb. Gülnaz xanım bir alim-musiqişünas olaraq hər zaman elmimizi Azərbaycandan kənarda layiqincə təmsil edir və artıq türk musiqişünasları onun məsləhətlərinə böyük ehtiyac duyurlar. Demək olar ki, 2000-ci ildən mütəmadi şəkildə BMA-da Türkiyədən xeyli tədqiqatçı doktoranturada təhsil alaraq Gülnaz xanımın rəhbərliyi altında fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüblər. Ən vacibi odur ki, hər bir mövzuda elə incəliklər tapır ki, mütləq musiqi mədəniyyətimizlə bağlılığı üzə çıxır. Bununla da türk alimlərini Azərbaycan musiqi mədəniyyətinin zənginliyi ilə yaxından tanışlıqla musiqimizin qədim ənənələrinin bir daha araşdırılmasına cəlb edir və təbliğinə nail olur.

Gülnaz xanım özü də daim xalq musiqimizin qədim ənənələrini öyrənməkdədir. Bu məqsədlə respublikanın müxtəlif bölgələrinə təcrübəli və gənc musiqiçiləri cəlb edərək ekspedisiyalar təşkil edir və onlara rəhbərliyi həyata keçirir. Həmin ekspedisiyaların sayı onlarcadır desəm, yanılmaram. İstiqamətlər arasında Şamaxı, Şəki, Yevlax, Zaqatala, Balakən, Qazax və Qax kimi şəhər-rayonların adını çəkmək olar. Sözügedən məkanlarda nəinki Azərbaycan, eləcə də multikultural dəyərlərə sadiq qalaraq ölkəmizdə yaşayan azsaylı xalqların musiqisi ilə maraqlanır və etnomusiqişünaslığın inkişafı üçün dəyərli nümunələr toplayıb musiqi ictimaiyyətinin nəzərinə çatdırır; məsələn, Qazaxda əldə edilən zəngin, dəyərli məlumatlardan ibarət məruzəsi Qazaxıstanın Astana şəhərində keçirilən beynəlxalq konfransın plenar iclasına salınmışdı. Bu da azərbaycanlı alimin növbəti uğuru idi! Belə nümunələri çox çəkmək olar, çünki təkcə Türkiyə Çümhuriyyətində deyil, Rusiyada, İtaliyada, Yunanıstanda, Gürcüstanda və digər ölkələrdə dəfələrlə musiqi elmimizin təbliğatını apararaq müxtəlif ölkələrdən olan elm adamlarını qədim ənənələrimizlə tanış edir.

Dövlətimiz onun əmək fəaliyyətini yüksək dəyərləndirib və 2007-ci ildə Azərbaycanın Əməkdar İncəsənət xadimi fəxri adına layiq görülüb.

Gülnaz Abdullazadənin fəaliyyəti çox genişdir. Onu BMA-da hər zaman gərgin iş prosesində görmək mümkündür və hər kəs (istər müəllim, istərsə də tələbələr) kömək üçün müraciət edə bilərlər. Çünki dəyərli məsləhətlərini, yardımçı fikirlərini heç vaxt ehtiyacı olanlardan əsirgəmir.

Bu yaxınlarda Gülnaz xanımın yubileyi oldu. Deyirlər ki, qadının yaşını soruşmazlar, faktiki görünüşü əsas meyar kimi götürülməlidir. Onun da bir qadın kimi təbii gözəlliyi, sadəliyi, insanlarla xoş ünsiyyət qurmaq bacarığı, bir sözlə, müsbət xarakteri əsl kübar xanımlığını təsdiqləyir.

Ona möhkəm cansağlığı, işlərində müvəffəqiyyətlər, yeni-yeni elmi zirvələrin fəthini arzulayıram! ❖

Nuridə İsmayılzadə,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent